UOT 94(479.24)
https://doi.org/10.59849/2710-0820.2024.1.86

**Nəriman Şirəliyev**
*AMEA A.A.Bakıxanov adına*
*Tarix və Etnologiya İnstitutunun əyani doktorantı*
*Azərbaycan*
*nariman.shireliyev@gmail.com*
*ORCID: 0000-0003-4717-9848*

# AZƏRBAYCAN AĞQOYUNLU DÖVLƏTİNDƏ HƏRBİ VƏZİFƏLİLƏR

***Açar sözlər:*** *Ağqoyunlu dövləti, hərbi məmurlar, Ağqoyunlu ordu sistemi, hərbi vəzifəlilər, təvaçi, pərvanəçi, əmirül-ümara*

***Giriş***

Azərbaycanın XV əsr ordu ənənələrinin öyrənilməsi məqsədilə tədqiq edilməsi vacib olan dövlətlərindən biri də Ağqoyunlu imperiyasıdır. İstər hərbi təşkilatlanma, istərsə də ordu daxilindəki iyerarxiya ilə özündən əvvəlki bir çox hərbi sistemin sintezi və inkişafı nəticəsində formalaşan türkman hərbi sisteminə əsaslanan ordu Azərbaycanda türk etnik kimliyinin hakim mövqeyə keçməsində mühüm yer tutmaqdadır. Bu baxımdan ordu təşkilatının öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Ordunu təşkil edən hərbi birliklər qədər, bu birliklərin və ümumilikdə dövlətin hərbi təşkilatının idarə edilməsində müxtəlif vəzifələrin təsis edilməsi və bu sistemin düzgün işləməsi ordunun gücünün bir parçasıdır. İntizamlı bir ordunun təşkili, hərəkəti və savaş meydanında üstünlüyün qurulması kimi bir çox fərqli məsələnin həllində ordu sistemi hərbi vəzifəlilərdən və onların bacarıqlarından asılıdır.

## I. Yüksək rütbəli hərbi vəzifəlilər

### *1.1 Hökmdar, yaxud baş komandan*

Azərbaycan Ağqoyunlu ordusu üzərində bütün hakimiyyət şübhəsiz padşahın əlində idi. Savaş ənənələri üzərinə qurulmuş bir dövlət sisteminə malik ağqoyunlularda padşahın güclü bir döyüşçü olması padşahlıq üçün vacib təməl xüsusiyyətlərdən biri hesab olunurdu [23, s.87]. İstər müharibə, istər sülh zamanlarında hərbi qüvvələrin tərtibi, əmirlərin təyinatı, fəth, yaxud ələ keçiriləcək torpaqlar üçün göndəriləcək birliklərin təyin edilməsi, ordu daxilində müxtəlif vəzifələrə təyinat və bu kimi ordu üçün mühüm əhəmiyyət kəsb edən bir çox məqam birbaşa padşahın buyuruqları hesabına həyata keçirilirdi.

Padşahın savaşa qatıldığı məqamlarda ordu tamamilə ona tabe idi. Əksər hallarda ordunun mərkəzinə rəhbərlik edir və digər birliklərin hərəkət istiqaməti, döyüşün ümumi taktikası, müxtəlif birliklər üçün xüsusi strategiyalar, döyüş meydanının və hərbi əməliyyat üçün doğru zamanın seçimi kimi önəmli məsələlərə qərar verirdi. Sadəcə padşahın istəyi ilə bu kimi hərbi məsələlər məşvərət edilir, sonda yenə padşahın əmri və göstərişləri üzərinə hərəkət edilirdi.

Ağqoyunlu ordusunun ən önəmli savaş güclərindən birini də məhz padşahın şəxsi maaşlı ordusu olan xassə qüvvələri təşkil edirdi. Xüsusən, Uzun Həsən dövrü üçün müxtəlif mənbələrdə bu qüvvələrin sayı 30 minə yaxın göstərilir [15, s.72]. Ağqoyunlu ordusunun ümumi sayı ilə bağlı isə müxtəlif fikirlər əks olunmaqdadır. Həsən bəy Rumlu Otluqbeli savaşında Ağqoyunlu hərbi qüvvələrinin sayının 70 min nəfər olduğunu qeyd edir [9, s.285]. Lakin bu rəqəm də ordunun bütün gücünü əks etdirmək üçün yetərli deyil. Ağqoyunlu ordusu bu savaşa Gürcüstan səfərindən sonra gəlmiş və toparlanmaq üçün yetərli vaxta sahib olmamışdı. Professional hərbi bacarıqlara sahib bu birliklərin daxilində müxtəlif növ döyüş bacarığına sahib savaşçılar mövcud idi. Əksər hallarda padşah məhz bu qüvvələrlə birlikdə hərəkət edər və padşahın iştirak etdiyi döyüşlərin əksəriyyətində də bu qüvvələrdən istifadə edilirdi. Yalnız xüsusi xarici düşmənlərə və dövlətin ərazi bütövlüyünə və siyasi kimliyinə təhlükə

yarandığı vəziyyətlərdə bütün ordu birlikləri və əyalət qüvvələri toplanılır, ümumi Ağqoyunlu ordusu təşkil edilmiş olurdu.

Uzun Həsənin hakimiyyət illərinə nəzər yetirdikdə padşahın ordunun hərbi gücündə yaratdığı müsbət dəyişikliklər xüsusilə diqqət çəkir. Qaraqoyunlu Cahanşaha, Teymuri Əbu Səidə qarşı baş verən döyüşlərdə və ümumilikdə müharibə şəraitinin idarə olunmasında Uzun Həsənin qətiyyətli mövqeyi və hərbi-stratejik bilikləri düşmənə qarşı ən uyğun hərbi taktikanın təyin olunması və qalibiyyətin əldə edilməsində mühüm rol oynamışdır.

Azərbaycan Ağqoyunlu dövlətində hökmdardan sonrakı ən nüfuzlu şəxslər səltənətin gələcəyi hesab olunan şahzadələr idi. Sülh zamanında müxtəlif vilayətlərin hakimi olan şahzadələr müharibə dövründə padşahla birlikdə savaşlara qatılır, əksər hallarda ordunun sağ və sol qollarına, eyni zamanda öncü qüvvələrinə başçılıq edirdilər. Uzun Həsənin hakimiyyəti dövründə, xüsusən şahzadə Uğurlu Məhəmməd və Xəlil Mirzə hərbi bacarıqları və hökmdar tərəfindən təyin olunduqları birliklərin başçısı kimi nəzərə alındığında ön plana çıxmaqdadır.

Cahanşahın oğlu və sonuncu Qaraqoyunlu padşahı hesab olunan Həsənəlinin ələ keçirilməsi və Şiraz vilayətinin digər Qaraqoyunlu şahzadəsi Əbu Yusifin adamlarından təmizlənməsi məqsədilə Uzun Həsən tərəfindən 10 min nəfərlik xassə qüvvəsi və əmirlərlə birlikdə həyata keçiriləcək hücum əməliyyatı şahzadə Uğurlu Məhəmmədə[1] həvalə edilir. Hicri 873-cü (1469) ildə şahzadənin başçılıq etdiyi qüvvələr ilk olaraq Miyanəyə, daha sonra Həmədana hərəkət edir. Baş verən döyüşdə Həsənəli öldürülür [9, s.273; 10, s.274; 41, s.335]. Şahzadə Uğurlu Məhəmmədin bu kimi vəzifələrlə müxtəlif döyüşlərdə iştirak etdiyi məlumdur. Şahzadənin ən böyük zəfərlərindən biri də Otluqbeli döyüşü öncəsi Ağqoyunlu mənqalayının[2] rəhbəri kimi Osmanlı öncül birliklərini məğlub etməsidir ki, döyüş əsnasında düşmən qüvvələrinin 4 min nəfərlik bir itkiyə məruz qalmasına, II Mehmetin ən güvəndiyi adamlarından Rumeli bəylərbəyi Has Murad paşanın öldürülməsinə və bir çox adlı sanlı əmirlərin əsir alınmasına səbəb olmuşdur [9, s.285]. Uğurlu Məhəmməd, həmçinin, Otluqbeli savaşında Ağqoyunlu ordusunun sol cinahında ehtiyat qüvvələrə rəhbərlik etmiş və son ana qədər savaşmış, lakin hökmdar sancağının düşmən əlinə keçməsi ilə geri çəkilmək məcburiyyətində qalmışdır [9, s.28]. Eyni döyüşdə ordunun sağ cinahına digər şahzadə Zeynəl bəy rəhbərlik edirdi. Şahzadənin döyüşdə öldürülməsinə baxmayaraq, sağ cinahın ona əmanət edilməsi, hökmdarın güvənindən və dövlət iyerarxiyasındakı rolundan qaynaqlanır.

Uzun Həsənin ən böyük oğlu şahzadə Xəlil Mirzənin hərbi gücünü isə birbaşa Cəlaləddin Dəvaninin "Ərznamə" əsərindən öyrənə bilirik. Fars vilayətinin hakimi olan Şahzadənin təşkil etdiyi və hakimiyyəti altında olan qüvvələrin keçid mərasimini əks etdirən əsərdə qoşunların sağ, sol və mənqalay birlikləri daxil olmaqla 22182[3] nəfərlik hərbi qüvvədən bəhs edilir [3, s.78-80; 14, s.83-87].

Xəlil Mirzə də Uzun Həsənin göstərişi ilə müxtəlif hərbi əməliyyatlarda iştirak etmişdir. Xüsusilə, Əbu Səidə qarşı baş verən savaşlarda şahzadə Xəlil ön plana çıxır. Teymuri sultanının ordugahına 3000 nəfərlik qüvvə ilə qarovul vəzifəsini icra etmək üçün göndərilən əmirlər arasında Xəlil Mirzə də vardı. Həmçinin, Sultan Əbu Səidə öldürücü zərbəni o, və şahzadə Zeynalın başçılıq etdiyi qüvvələr həyata keçirir. Əbu Səidin qərargahı dağıdılır, ailəsi, xanımları və özü əsir alınır [41, s.319].

Şahzadələrin şəxsi keyfiyyətləri və hakimiyyət daxilindəki mövqeyi sadəcə onların güclü hərbi bacarıqları ilə deyil, eyni zamanda xanədan daxilində baş verən güc mübarizəsindən də önəmli miqyasda asılı idi. Bu prosesdə xüsusilə hərəmin və böyük əmirlərin, eyni zamanda digər tayfa başçılarının rolu önəmlidir. Uzun Həsənin ikinci xanımı Səlcuqşah bəyimin bu mübarizədə və güc balansının təşkilində xüsusi yeri var. Savaş meydanındakı bacarıqları ilə digər şahzadələrdən seçilən Uğurlu Məhəmmədin hakimiyyət yolunun əngəllənməsi, Uzun Həsənin ölüm ayağında olduğu vaxtda Sultan Xəlilin çağırılaraq rəsmi vəliəhd kimi təqdim olunması, daha sonra Sultan Xəlilə qarşı Yaqub

[1] Muhsin Bəhramnejad yazmış olduğu əsərdə bu hadisədə iştirak edən şahzadəni Sultan Xəlil olaraq göstərir [16, s.71].

[2] Öncül qüvvələr.

[3] Əsərin "Həmidəyə" nüsxəsində müəllif tərəfindən əks olunan ümumi rəqəmlər əsas alınmışdır.

Mirzənin dəstəklənməsi, 1490-cı ildə Sultan Yaquba qarşı sui-qəsddə məhz Səlcuqşah bəyimin adının hallanması onun şəxsi nüfuzunu ön plana çıxarmaqla yanaşı, şahzadələrin ordu və hakimiyyət daxilindəki yerinin təyin olunmasında söz və güc sahibi olduğunun mühüm xəbərçisidir.

***1.2 Əmir-ül üməra***

Ağqoyunlu qoşunlarında hökmdardan sonrakı ən böyük rütbəli əmir əmirül-üməra idi. Bir çox qaynaqda bu vəzifənin xilafət dövründə formalaşdığı və daha sonra müsəlman dövlətlərdə hərbi və mülki idarəetmədə önəmli vəzifəlilərdən biri olduğu qeyd edilir [47, s.159]. Əmirlər əmiri [7, s.235] kimi hərfi tərcüməyə malik bu vəzifəlinin Ağqoyunlu dövlətində ən yüksək rütbəli hərbi məmur olduğu və mülki idarəetmədən kənar fəaliyyət göstərdiyini düşünürük. Dövrün müxtəlif dövlətlərində əmirülüməranın divandakı mövqeyi fərqlilik göstərmişdir. Türkman irsinin davamçısı olaraq adlandıra biləcəyimiz Səfəvi imperiyasının ilk illərində əmirül-ümərанın olduqca güclü mövqeyi diqqət çəkməkdədir [24, s.94]. Həsən bəy Rumlunun yazdıqlarına əsasən hicri 914-cü ildə (1508/1509) Şeyx Nəcm Zərgər I Şah İsmayıl tərəfindən əmirül-ümərа vəzifəsinə təyin edilir. Həsən bəy Rumlu bununla bağlı yazır: “... onun möhürünü ali divanda bütün möhürlərdən daha yuxarıda vurdular” [9, s.402; 25, s.46]. Göründüyü kimi, burada əmirül-ümərа divan əmirlərinin ən rütbəli üzvi kimi təqdim edilir. H.D.Yıldızın fikrincə, 1843-cü ilə qədər Osmanlı dövlətində bəylərbəyilərə əmirül-ümərа deyilirdi [47, s.159]. Həsən bəy Rumlu əsərində Rumeli bəylərbəyi Has Murad Paşanı Rumeli əmirülümərası kimi təqdim edir [9, s.285].

Ağqoyunlu qaynaqlarında əmirül-ümərа vəzifəsini daşıyan əmirlər haqqında yetərli məlumat verilmir. Ş.F.Fərzəliyev Həsən bəy Rumluya istinad edərək Fərrux bəyin Ağqoyunlu Baysunqur Mirzənin əmirül-ümərası olduğunu qeyd edir [6, s.46]. Dövlət idarəetmə sistemində də bu əmirlərin adının keçməməsi Ağqoyunlu imperiyasında əmirül-ümərанın sadəcə hərbi idarəetmənin bir parçası olduğunu düşünməyimizə səbəb olur.

Savaş zamanı qoşunlar üzərindəki hakimiyyət baxımından hökmdardan sonra gələn əmirül-ümərа [50, s.331] hökmdarın iştirak etmədiyi yürüşlərdə bütün qoşunun idarəetməsinə sahib olurdu. Əsasən, mənşəcə türk və hakimiyyətə bağlı tayfaların başçılarından seçilən [24, s.94] əmirül-ümərа döyüş meydanında bütün əmirlərin də rəhbəri sayılır və onun göstərişləri sorğusuz yerinə yetirilirdi [7, s.235].

Hicri 876 (1471/1472) ildə Qaraman uğrunda mübarizədə daha fəal mövqe tutmaq və Osmanlı sultanı II Mehmedi çəkindirmək məqsədilə Uzun Həsən “... böyük bir ordunu o qoşunun öndəgedəni və o ölkənin böyüyü olan Əmir bəy Mosullunu Tokat şəhərinə basqın etməyə göndərdi” [41, s.370; 9, s.281]. Ağqoyunlu hərbi sistemində adıçəkilən istilahın varlığını təsdiq edən bu örnəkdə göründüyü kimi, padşahın özünün qatılmadığı bir səfərdə qoşunlar əmirül-ümərаya həvalə edilir. Padşahın iştirak etdiyi döyüşlərdə isə bəzən sağ qol, bəzən də sol qol əmirül-ümərанın başçılığında hərəkət edirdi [33, s.44].

***1.3. Əmirlər***

Ağqoyunlu idarəetmə sistemində müxtəlif qrupların, fəaliyyət sahələrinin, topluluqların başçıları əmir istilahı ilə tanıdılır. Əmirlər ordudakı ən kiçik birliklərin başçılarından başlayaraq böyük tayfaların başçılarına kimi olduqca geniş idarəedici təbəqəni əhatə edir. Bu idarəetmə xüsusiyyətlərindən qaynaqlanaraq əmirlərin xassə qüvvələri formalaşır və bu da öz növbəsində onları ordunun və dövlətin önəmli bir hissəsinə çevirirdi.

Dövrün qaynaqlarında əmirlər fərqli sinifləndirmələr üzərindən adlandırılır. Xüsusən hakimiyyətə yaxın əmirlər üçün “əmiri-bozorq”, “əmiri-azəm” kimi böyük əmir mənasına gələn ifadələrdən istifadə edilir. Əbubəkr Tehrani Əmir Teymur üçün “əmiri-bozorq” [41, s.34], Qara Osman bəy üçün isə “əmiri-namdar” [41, s.36] ifadələrindən istifadə edir.

Cəlaləddin Dəvani də böyük əmirləri ifadə etmək üçün əmiri-əzəm ifadəsindən istifadə edir. Müəllif, Əmir Hüseyn bəy Tavaçi, Əmir Müzəffərəddin bəy Pornak, Əmir Mahmud bəy, Əbabəkir bəy, Şahqulu bəy üçün bu tanımlamadan istifadə edir [14, s.47-56].

Eyni zamanda, qaynaqlarda ”əmiri-həcc”, “əmiri-şikar”, “əmiri-axur”, “əmiri-ləşkər”, “əmiri-divan” kimi fərqli sinifləndirmələrə də rast gəlirik.

Həcc ziyarəti üçün hərəkət edəcək qafilənin rəhbəri olaraq təyin olunan “əmiri-həcc” hökmdar tərəfindən seçilirdi. 1471-ci ildə Həsən Padşah tərəfindən bu vəzifəni icra etmək məqsədilə qardaşı Uveys bəy təyin olunur və çoxsaylı piyada və süvarilərin müşayiəti ilə qafilə yola düşür [9, s.278].

“Əmiri-şikar” – şikar, yaxud ov mərasimlərinin əmiri olan bu şəxslər mərasimin təşkili ilə birbaşa məşğul olurdular. Ovda iştirak edəcək qüvvələrin, vəzifəlilərin təyininə əmiri-şikar rəhbərlik edirdi. Həsən bəy Rumlu əsərində Əlvənd Mirzə və I Şah İsmayılın qüvvələri arasında hicri 907-ci ildə (1501/1502) baş verən döyüşdə Halvaçıoğlu Əmiri-şikarın iştirak etdiyini yazır [9, s.373].

Ordunun və hökmdarın atlarının baxımı və atların bütün təsərrüfat işlərinin həlli ilə vəzifəli rəhbər məmur “əmiri-axur”, yaxud “miraxur” adlanır. Ağqoyunlu dövlətində ordunun böyük bir hissəsinin süvarilərdən təşkil olunması bu vəzifənin önəmini xeyli artırırdı. Hicri 883-cü il rəbiüləvvəl ayının 14-də (15 iyul 1478) Sultan Xəlil və Yaqub Mirzə arasında baş vermiş döyüşdə “əmir-axur”, Şeyx Əli Möhürdarın oğulları Sultan Yaqubla birlikdə ordunun mərkəzində (qul) döyüşür və Sultan Xəlilin öldürülməsində iştirak edir [52, s.32]. Həmçinin, Qaraqoyunlu Rüstəm Tərxan Ağqoyunlular üzərinə yürüşü zamanı Çermik şəhərinə hücum edir. Hücumu qarşılamaq məqsədilə Əmir-axur Qasım bəy və Suli şəhərdən çıxaraq düşmənə qarşı vuruşurlar [41, s.142].

“Əmiri-ləşkər” – ordu əmirləri adlarından məlum olduğu kimi qoşun daxilindəki müxtəlif birliklərə rəhbərlik edirdilər. Onluq sistemə əsaslanan və birliklərini buna uyğun təşkil edən Ağqoyunlu ordusunda hər birlik üçün əmirlər vəzifələndirilir və döyüş əsnasında verilən əmrlərin həyata keçirilməsindən bu məmurlar mükəlləf olurdu. Hər əmir özündən daha rütbəli bir əmirdən asılı idi və ordu daxilində iyerarxiya bu şəkildə təşkil edilirdi. Bu da öz növbəsində qoşunların sistemli hərəkətini və döyüş zamanı həyata keçiriləcək taktikaların effektivliyinə birbaşa təsir edirdi.

“Əmiri-divan” – divan əmirləri daha çox mülki vəzifəli əmirlər idi. Mükəlləf olduğu divanın fəaliyyətinin tənzimlənməsi məhz “əmiri-divan”ın vəzifəsi idi.

Əmirlər ordudan kənar mülki idarəetmədə də vəzifə alırdılar. Müxtəlif əyalət və vilayətlərin idarəsinə əmirlər təyin olunurdu. Bu vəzifələr üçün xüsusilə böyük əmirlər hər zaman ön planda idi. Bəzən hökmdar tərəfindən iqta olaraq əmirlərə torpaq mülkiyyəti də bağışlanırdı. Məsələn, Uzun Həsən hicri 877-ci ildə (1472) Gürcüstan səfərindən Təbrizə döndükdən sonra Tiflisi iqta olaraq əmiri-əzəm Sufi Xəlilə bağışlayır [41, s.368].

## II. İkinci dərəcəli hərbi vəzifəlilər

### *2.1. Təvaçi*

Təvaçi sözü etimoloji cəhətdən monqol dilindəki “togaca”dan yaranmışdır, saymaq və toplamaq kimi mənaları ifadə edir [30, s.41; 12, s.177]. Müxtəlif mənbələrdə tavacı kimi də rast gəlmək mümkündür. Xüsusən, monqol hərbi ənənəsinin bir parçası olaraq həm Elxani, həm də Teymuri dövlətlərində təvaçilərin varlığına rast gəlirik [42, s.168; 33, s.52]. Əyalətlərdə ordunun toplanması, sayımı, ordu haqqında padşaha məlumatın verilməsi kimi müxtəlif vəzifələrlə mükəlləf olan təvaçilər, Ağqoyunlu dövlətinin hərbi sistemində də mühüm əhəmiyyət kəsb etməkdədir [7, s.96; 6, s.47].

V.Mınorski tədqiqatında “Ərznamə”yə əsaslanaraq təvaçiləri bir növ ordunun baş qərargahı kimi tanıdır və Təvaçıbaşı Əmir Hüseyn bəy Bayanduru hərbi təşkilatlanmada ekspert kimi göstərir [53, s.163].

Təvaçi ünvanı yalnız bir nəfərə verilən vəzifədən ziyadə, bir neçə nəfərə verilən ünvan idi və əksərən hər vilayət, yaxud əyalət üçün təvaçi vəzifəsi təsis edilə bilirdi. Bunu Teymuri hərbi təşkilatında açıq şəkildə görürük. Əbubəkr Tehrani Mirzə Şahruxun İran və Azərbaycana yürüşündən öncə təvaçilərə ordu toplanması əmrini verdiyindən bəhs edir [41, s.79; 9, s.92]. 1370-ci ildə Əmir Teymurun eyni vaxtda 8 nəfəri təvaçi təyin etməsi də fikrimizi dəstəkləyəcək bir digər mənbədir [12, s.177]. “Kitabi-Diyarbəkiriyyədə” həmçinin Uzun Həsənin Bağdad səfərindən öncə köçlə bağlı sipəhdarlar və təvaçilərlə bağlı çağırışından bəhs olunur və təvaçilər cəm şəklində göstərilir [41, s.299]. Ş.F.Fərzəliyev qaynaqlara əsaslanaraq yalnız hökmdarların deyil, həmçinin ayrı-ayrı şahzadələrin və əyalətlərin də təvaçiləri olduğunu vurğulayır [6, s.48]. Bu da nəticə də təvaçini or-

duda bir vəzifədən daha çox, bir sistemin parçası halına gətirir.

Təvaçilər ordu birliklərinin qeydiyyatını aparır və bunları təvaçi dəftərinə yazırdılar. Cəlaləddin Dəvani "Ərznamə" əsərində Ağqoyunlu ordusunun keçid mərasimində iştirak edənlərin sayı haqqında təvaçi dəftərinə əsaslandığını bildirir [14, s.55]. Eyni zamanda müəllif bu dəftərləri "ruznamçeyi-humayun"[4] kimi qeyd edir [14, s.58]. İtalyan diplomatı J.Barbaro isə Şiraz yaxınlığında Ağqoyunlu ordusunun keçid mərasimini izləyərkən sırada durmuş ordu mənsublarını saymaqla məşğul olan bir vəzifəlinin olduğunu qeyd edir. Sayımın həyata keçirilmə prinsipinə yad olan müəllif bu proseslə bağlı yazır: "Ancaq bizim adətlərimizin əksinə, şəxslərin adlarını qeyd etməklə və ya atları dağlamaqla vaxt itirməyib, sadəcə bəyləri çağırıb onun əmri altındakı "sipahi"lərin sayının doğru olub-olmadığını görmək istəyir, daha sonra isə bir başqasına yönəlirdi" [15, s.71]. Qeyddə önəmli olan məsələlərdən biri də, ordunun və ayrı-ayrılıqda hər bir əmirin başçılıq etdiyi hərbi qüvvənin sayından təvaçinin əvvəldən məlumatlı olmasıdır. Deməli, təvaçilər daimi olaraq ordunun qeydiyyatını aparır və bunları sistemli bir hala gətirirdilər. Bu da öz növbəsində Ağqoyunlu dövlətinin idarəetmə sistemində Təvaçi divanının olmasını da təsdiqləyir. Təvaçilər fərqli vaxtlarda aldıqları qeydləri sistemləşdirmək üçün bir araya gəlir və ordunun davamlılığı və hərbi gücünü nəzarət altında saxlayaraq lazım olduğu təqdirdə müharibə üçün toplanacaq ordunun təxmini sayı və təşkilatlanması ilə bağlı məlumatlara sahib olurdular. Fəzlullah Ruzbexan Xunci yüksək dərəcəli əmirlərdən hesab etdiyi və haqqında olduqca ağıllı ifadəsini istifadə etdiyi Hüseyn bəy Qoca Hacının (Hacılının) Təvaçi divanında (divani-təvaçi) əmir olduğunu yazır [51, s.47; 52, s.24]. J.Woods öz tədqiqatında Təvaçi divanını ordu katibliyi kimi təqdim edir [45, s.25]. V.Minorski isə bu divanı Baş Qərargah kimi göstərir [53, s.163].

Türk tayfalarının hərbi təlimlərinin böyük bir hissəsini ov mərasimləri tutur. Bu proses hərbi təşkilatlanmanın bir parçası olduğu üçün ov mərasimlərinin təşkilini də təvaçilərin həyata keçirdiyini düşünürük. Əbubəkr Tehrani Xəlil Təvaçi başçılığında Ağqoyunlu qüvvələrinin Bingöl yaylasında yerləşdiyini və onlardan bir qrupun ov üçün at mindiyini yazır [41, s.267]. Ov mərasimlərinin təşkilinə Teymuri dövlətində də təvaçilər nəzarət edirdi [53, s.52].

"Kitabi-Diyarbəkiriyyə"dən yola çıxaraq Xəlil Təvaçinin xüsusilə Uzun Həsən dövründə Ağqoyunlu dövlətində mühüm yer tutduğunu deyə bilərik. Əbubəkr Tehrani adıçəkilən əsərində Uzun Həsənin ayağının qırıq olduğu vaxtda "Rum ölkəsindən" (Osmanlı dövlətindən – N.Ş.) gələn elçiylə görüşmək məqsədilə Xəlil Təvaçinin onu çiyinlərinə alıb divana götürdüyünü yazır [41, s.162]. Yenə Əbubəkr Tehraninin yazdıqlarından aydın olur ki, Uzun Həsənin Mardinə yürüşü sırasında ordunun öncül qüvvətlərinə Mihmad bəy və Xəlil Təvaçi rəhbərlik etmişdi [41, s.168]. Sonuncu qeyddən göründüyü kimi, Xəlil Təvaçi həm də aktiv savaşlarda qoşuna komandanlıq etmişdi. Əsərdə bununla bağlı bir çox yerdə məlumat verilmişdir. Xəlil Təvaçinin Uzun Həsənin göstərişi ilə Meysəm qalasının, bir neçə əmirlə birlikdə Kəmax və Melet qalalarının mühasirəsində iştirakı, Ərbilin və ətrafındakı bəzi qalaların və bölgələrin ələ keçirilməsi, şahzadə Sultan Xəlillə birlikdə Qaracadağ yaylağına qədər köçün hərəkətində öndər əmirlərdən olması kimi bir çox məqam öz əksini tapmışdır [41, s.44, 168, 240, 248, 250]. Təvaçilərin hərbi biriklərin başında savaşa getməsi yalnız Xəlil Təvaçi üçün keçərli deyil. Həsən bəy Rumlu Uzun Həsənin Mizə Məhəmməd Təvaçini də Rüstəmdarı və Çəlavilər vilayətinin qalalarının fəthi üçün təyin etdiyi haqqında məlumat verir [9, s.279]. Müəllif həmçinin, Sultan Xəlil və Yaqub Mirzə arasında 1478-ci il iyunun 15-də baş vermiş döyüşdə Yusif bəy Təvaçinin döyüş meydanındakı şücaətindən bəhs edir [9, s.306]. Bu kimi məlumatlar təvaçilərin dövlət idarəetmə iyerarxiyasındakı rolunun öyrənilməsi istiqamətində mühüm qeydlərdir. Eyni zamanda, V.Minorski öz tədqiqatında qeyd edir ki, Cəlaləddin Dəvani

[4] Xüsusən, Osmanlı dövlətində istifadə olunan "ruznamçe" ifadəsi farscadan tərcümədə "gündəlik" mənasına gəlir və müxtəlif bürokratik fəaliyyətlərin qeyd edildiyi dəftəri göstərmək üçün istifadə edilir [11, s.276]. "Hümayun", yaxud "humayun" isə hökmdarı ifadə etmək məqsədilə istifadə olunur [46, s.479]. Nəticədə "ruznamçeyi-humayun" hökmdar dəftərləri, yaxud saray dəftərləri mənasına gəlir.

"Ərznamə"də təvaçiləri "yüksək mövqeli şəxslər" kimi tanıdır [53, s.163].

Təvaçilər yalnız döyüşdən öncə ordunun toplanması ilə deyil, eyni zamanda döyüş ərzində birliklərin koordinasiyası və ələ keçiriləcək ərazilərə hərəkət edəcək qüvvələrin təyinatlandırılması ilə də məşğul olurdular [53, s.163]. Həmçinin hərbi keçidlərdə qüvvələrin hökmdara tanıdılması və keçidin təşkilinə də yenə təvaçilər nəzarət edirdilər [7, s.256].

Təvaçilərin ordu daxilində və dövlət idarəetməsindəki rolu onları hökmdarlar, yaxud tabeliklərində olduqları əmirlər üçün vazkeçilməz hala gətirirdi. Xüsusilə hərbi qüvvələr üzərində hakimiyyət və təhlükə anında ordunun təşkili ilə məşğul olan bu vəzifəlilər dövlət idarəetməsinin təməl daşlarından idilər. Yuxarıda bəhs etdiyimiz hakim tayfanın (Bayandurların) üzvü olan Hüseyn bəy Bayandurun Təvaçibaşı təyin olunması da Ağqoyunlu dövlətində bu vəzifəyə verilən dəyərin bir örnəyidir.

***2.2. İnaq***

Türkçədə inanmaq feilindən yarandığı düşünülən bu istilahın Oğuz dastanında hökmdarın ən yaxın adamları olaraq zikr edildiyi görünür. Eyni zamanda Monqol idarəetmə sisteminin bir parçası olan bu istilah "hökmdarın özəl dostu, saray xadimi (nədim)[5]" kimi əks etdirilir. İnaqlar Ağqoyunlu dövlətində də eyni mənada istifadə edilmiş və mənbələrdə hökmdarın "yaxın, özəl dostu" kimi əks olunmuşdur. Əbubəkr Tehrani Sultan Həmzənin yanında vəzifəli olan inaqı "nədim" kimi təqdim edir [41, s.103].

İ.Erdem öz tədqiqatında inaqları xassə qüvvələrinin bir parçası kimi göstərir və onların xüsusi elçilər olduqlarını vurğulayır [23, s.90].

T.H.Nəcəfli İ.H.Uzunçarşılıya istinadla sarayda inaq kimi vəzifələndirilən şəxslərin türk kökənli gənclərdən seçildiyini, önəmli və gizli əmrlərin müvafiq şəxslərə çatdırılması ilə mükəlləf olduqlarını qeyd edir [7, s.90; 44, s.205-206].

Əbubəkr Tehraninin əsərində xüsusilə bir yerdə keçən ifadə olduqca diqqət çəkicidir. Cahanşah və Uzun Həsən arasında baş verən son döyüşdən bəhs edərkən müəllif, əsir alınanlar arasında "böyük inaqlar" ifadəsindən istifadə edir. Bu şəxsləri böyük əmirlər (ümera-yi-izam) və Cahanşahın ailə üzvləri ilə birlikdə qeyd edir [41, s.277]. Bu da sarayda inaqların iki qrupdan ibarət olduğunu düşündürür. Daha yüksək rütbəli və padşaha daha yaxın olan, müəllifin ifadəsi ilə "böyük inaqlar" və onlardan daha aşağı rütbəli olan digər inaqlar.

Hər zaman hökmdarın ətrafında olan inaqlar xüsusən hərbi əməliyyatlara daxil olmaqla çox önəmli işlərdə aktiv vəzifələr alırdılar. Hicri 823-cü ildə (1420/1421) İsgəndər Mirzə və Osman bəy arasında baş vermiş döyüşdə Məhəmməd İnaq Xəlil oğlu da digər əmirlərlə birlikdə iştirak edir və öldürülür [41, s.62].[6] 1468-ci ildə Uzun Həsən və Sultan Əbu Səid arasında baş vermiş əsas döyüşdən öncə Ağqoyunlular tərəfindən düşmən qüvvələrinə tez-tez basqınlar həyata keçirilir. Bu basqınlardan birində min nəfərlik bir süvari qüvvənin başındakı şəxslərdən biri də Əbu Səid İnaq idi [9, s.263].

İnaqlar mənbələrdə əmirlər və vəzirlərlə birlikdə göstərilir [7, s.90]. Əbubəkr Tehrani Qaraqoyunlu Cahanşahın Teymurilərin zəifliyindən istifadə edərək İraq ərazilərinin yenidən ələ keçirilməsi məqsədilə göndərdiyi qüvvələrdən bəhs edərkən əmirlər və inaqlar olaraq hər iki istilahı yan-yana göstərir [41, s.212]. Cəlaləddin Dəvani də "Ərznamə" əsərində keçid sırasında hərəkət edən inaqları və boy nökərlərini tərif etmək üçün "yavaş addımlı qələmin hər birinin adlarını saymaqdan, vəzifələrini və geyimlərini vəsf etməkdən aciz olan" ifadələrindən istifadə edir. O, inaqların ümumi sayını 6714 nəfər göstərir və onlardan 3716-ın savaş igidləri olduğunu vurğulayır [14, s.63]. Geriyə qalan 2998 nəfərin inaqlar və boy nökərlərindən ibarət olduğunu düşünürük.

Mənbələrdə inaqlar eyni zamanda müxtəlif ərazilərin hakimi olaraq görülməkdədir. Əbubəkr Tehrani Qara Yusifin hakimiyyəti altında olan əraziləri sadalayarkən Kürdistan, Mardin, Mezrin, Mosul, Sincar və Siirtlə yanaşı, 32 qalanın İnaq Mahmuda verildiyini qeyd edir [41, s.34]. Yenə eyni əsərdə Osman bəy tərəfindən yeni ələ keçirilən ərazilər arasında olan Akşehirin İnaq Həsənə verildiyini qeyd edilir [41, s.68].

[5] Lüğətdə "qədəh yoldaşı, dost" mənasını verən nədîm sözü hazırcavab şəxsiyyəti, elmi və müxtəlif bacarıqları ilə hökmdarı müşayiət edən şəxslərə aiddir [18, s.509]

[6] Həsən bəy Rumlu da eyni hadisədən bəhs edir, lakin Məhəmməd Xəlil oğlunun digər əmirlərlə birlikdə əsir alındığını yazır [9, s.98].

### *2.3. Daruğa*

Bu istilah da monqol hərbi ənənəsinin bir ünsürüdür. Hərfi mənası "sıxmaq, basdırmaq" kimi mənalandırıla bilər. Farsça və ərəbcə "hakim", "şahnə" kimi fərqli adlandırmalardan istifadə edilsə də, nəticədə daşıdığı məna etibarı ilə hökmdarın təyin etdiyi və əyalətləri, yaxud şəhərləri onun adından idarə edəcək vəzifəli şəxs idi [49, s.505].

Bu vəzifəni daşıyan şəxslərin öhdəlikləri haqqında fərqli fikirlər mövcuddur. Yaranan fərqliliklərin əsas səbəbi istilahın ilk görüldüyü Monqol imperiyası ilə daha sonra həmin təşkilatlanmadan pay götürən digər dövlətlərdə vəzifəlilər arasında səlahiyyətləndirmə fərqləridir. Çingiz xanın (1206-1227) hakimiyyəti illərində şəhərlərə, yaxud bölgəyə təyin olunan darğalar həm hərbi, həm də mülki idarədə tam səlahiyyətə sahib idilər. Bəzi tədqiqatçılara görə isə daruğa, yaxud darğa yalnız hökmdarın xassə mülklərinin idarəsinə təyin olunurdu və hərbi idarəedici idi. J.Woods darğa ilə bağlı məlumat verərkən onun şəhərlərdə hərbi qarnizonun komandanı kimi fəaliyyət göstərdiyini bildirir [45, s.20].

Mənbələrdə darğa istilahından istifadə də fərqlilik vardır. Bir çox məqamda birbaşa hökmdar tərəfindən, xüsusən, böyük şəhərlərə və qalalara daruğa təyin edilməsi əsas alınaraq hakimlə eynilik təşkil etsə də, müxtəlif qaynaqlarda daruğa daha kiçik bir vəzifə kimi əks etdirilir. Ş.F.Fərzəliyev fərqli qaynaqlara əsaslanaraq hər iki fikir haqqında mülahizələr yürüdür. Müəllifə görə, istilahın istifadə edildiyi mənbələrdə darğa istilahı "hakim" əvəzində işlənildiyi zaman daha üst rütbədən təqdimat verilir, yəni bu mənbələrdə darğanın əmirlik mövqeyi ön plana çıxarılır. Bunun əksinə olaraq, darğa istilahı dar mənada işlənərkən bu darğaların "əmirlik" olmadığı aşağı bir vəzifədən bəhs edildiyi nəzərə çarpır. Nəticə də, istilahın istifadə edildiyi yerlər nəzərə alınaraq vəzifə etibarı ilə darğanı "hakim"lə eyniləşdirmək mümkün olsa da, onları bazar darğası, dəftərxana darğasına şamil etmək olmaz [6, s.57].

Əbubəkr Tehrani əsərində "hakim"i daha yüksək mərtəbədən təqdim edərək hökmdarla eyniləşdirir və hökmdar tərəfindən təyin olunan idarəediciləri darğa termini ilə ifadə edir. Müəllif, 1458-ci ildə Həsən Əlinin üsyanından bəhs edərkən Kuzistan bölgəsində türkman əmirlərin darğalarının ələ keçirildiyini yazır [41, s.234]. Örnəkdən göründüyü kimi, yalnız hökmdarın deyil, eyni zamanda əmirlərin də hakimiyyəti altında fəaliyyət göstərən darğalar vardır.

Əsərin bir çox yerində həm Teymuri, həm Qaraqoyunlu, həm də Ağqoyunlu hökmdarlarının yerləşim mərkəzlərinə və qalalara darğa göndərdiyi əks olunur. Məsələn, 836-cı ildə (1432/1433) Osman bəy Ərzurumu ələ keçirdikdən sonra buraya Əmirzadə Şeyx Həsən bəyi darğa təyin etmişdi [41, s.79]. Burada önəmli olan digər bir məqam Ərzurum alınmadan öncə şəhərin Qaraqoyunlu İsgəndər bəyə bağlı vali Duharlu Pir Əhməd bəy tərəfindən idarə edilməsi idi. Yəni şəhərə vali əvəzinə darğa təyin olunur. Nəticədə iki ehtimal yaranır ki, bunlardan birincisi müəllif tərəfindən hər iki istilahın eyni mənada – əyalət, yaxud ərazinin idarəedicisi kimi istifadə edilməsidir. İkinci ehtimal isə, yeni ələ keçirilən ərazilərə məhz darğaların təyin edilməsidir ki, bu da özlüyündə darğanın mülki idarəedicidən daha çox hərbi idarəedici olmasından xəbər verir. Yəni ərazilərə darğa təyin edilərək icitimai asayiş nəzarət altında saxlanılmağa çalışılırdı. Xüsusən yeni ərazilərin fəthindən sonra darğaların təyin edilməsi ikinci ehtimalı daha güclü hala gətirir. Yalnız bu o demək deyil ki, valilər sadəcə mülki idarəedici idilər. Əbubəkr Tehraninin əsərinin müxtəlif bölmələrində valilər tərəfindən idarə etdikləri ərazilərin müdafiəsi üçün hərbi hazırlıqların həyata keçirilməsi diqqət çəkir. Damğan valisi Əmir Nəsrəddin Simnaninin qalanın müdafiəsi üçün divarların möhkəmləndirilməsi kimi hərbi hazırlıqları buna örnəkdir [41, s.222]. Eyni zamanda "Ərznamə"də Kazirun ərazisinin darğalığı həvalə olunan Çələbi Seyfəddin Məntəşənin 240 nəfərlə – 38 puşanpuş[7], 40 tirkəşbənd[8], 156 kılığçı[9] ilə birlikdə rəsmi keçiddə iştirak etdiyi təsvir olunur [14, s.65]. Qüvvələrinin xüsusilə döyüşçülərdən ibarət olması diqqət çəkicidir.

"Kitabi-Diyarbəkiriyyə"də müəllif darğa ilə yanaşı, yeni ələ keçirilən ərazilərə vergi məmurlarının da göndərildiyini əks etdirən bir çox məqamdan bəhs edir [41, s.229, s.347; 10, s.79]. Buna əsaslanaraq deyə bilərik ki, darğala-

[7] Ağır zirehli döyüşçülər
[8] Oxçular
[9] Orduda xidmət edən qüvvələr

rın təyin olunduqları ərazilərdə vergi yığmaq kimi bir vəzifəsi yox idi.

***2.4. Qazıəsgər***

Azərbaycan Ağqoyunlu dövlətinin hərbi sisteminin başlıca ünsürlərindən biri də orduda şəri işləri ilə bağlı fəaliyyət göstərən qazıəsgərdir. Şəriət hakimi olan qazı və əsgər sözlərinin sintezindən formalaşan bu istilah [19, s.3] ordu daxilində şəriətlə bağlı məsələlərin həllini həyata keçirməklə məşğul olan dövlət adamına verilən ad idi. Müxtəlif mənbələrdə "qaziyi-ləşkər", "qazıəsgər", "qoşun qazısı" kimi fərqli terminlərlə təqdim edilməsinə baxmayaraq, qazıəsgər demək olar ki, bütün müsəlman türk dövlətlərinin hərbi sisteminin və dövlət idarəetməsinin bir parçası olmuşdur.

Qazıəsgərin Ağqoyunlu dövlətində əsas vəzifəsi ordu daxilində baş verən mübahisələrin şəriətə əsasən həllini həyata keçirmək və orduda dini təbliğat aparmaqdan ibarət idi [7, s.244; 6, s.38]. Dini elmlərdəki üstün bilikləri ilə yanaşı, yüksək intelektual bacarıqlara sahib olan qazəsgər ünvanı daşıyan bu şəxslərin müxtəlif türk-müsəlman dövlətlərindəki vəzifələri də oxşar olmuşdur. Ağqoyunlulara qonşu olan Osmanlılar, Qaraqoyunlular, Teymurilər və Məmlüklərin ordu sistemində qazıəsgərə istilahına rast gəlmək mümkündür. Əbubəkr Tehraninin yazdıqlarına əsasən Uzun Həsən 1468-ci ildə sultan Əbu-Səidin elçisi ilə birlikdə Ağqoyunlu qazıəsgəri Qazı Əlaəddin Əlini də elçi kimi Teymuri ordugahına göndərmişdi [41, s.311; 7, s. 254]. Eyni zamanda, Qaraqoyunlu Cahanşahın da yanına elçiliyə göndərilən qazını müəllif əsərində sağlam düşüncəli, elmli biri kimi təqdim edir və axıcı danışıq üslubu və dini işlərdəki təcrübəsi ilə seçilən bir şəxsi kimi göstərir. Burdan göründüyü kimi qazıəsgər dövlət idarəetməsində də mühüm rola sahib olmuşdur və bu vəzifə üçün seçilən şəxsdə yalnız dini məsələlərdəki təcrübə və təhsil deyil, o cümlədən yüksək intellektual bacarıqlar da tələb olunurdu. Cəlaləddin Dəvaninin qələmə aldığı "Ərznamə" əsərində Qazı Əlaəddin Əlinin artıq Ağqoyunlu sarayında "Sədr" olaraq fəaliyyət göstərdiyi və "Sədarət" məqamının sahibi və Mövlana Əlaəddin Əli Beyhəqi adı ilə tanındığı qeyd edilmişdir [14, s.39].

XVI əsr Səfəvi tarixçisi Qazı Əhməd Qaffari "Tarixi-cahanara" adlı əsərində 1476-1477-ci illərdə Uzun Həsənin Gürcüstana yürüşü zamanı qazıəsgər olan Qazı Hüccətül-İslamın orada xütbə oxuduğunu və İslamın o diyarlarda yayıldığını vurğulayır [25, s.49]. Bu da qazıəsgərin ordu daxilindəki dini vəzifələrinin öyrənilməsi üçün mühüm əhəmiyyətə malikdir.

Qazıəsgərin Ağqoyunlu dövlətindəki varlığına J.Barbaronun səyahətnaməsində də rast gəlirik. Müəllif, vəzifəli şəxsin öhdəlikləri, yaxud adı ilə bağlı məlumat verməsə də, bəhs etdiyi bir hekayədə qazıəsgərin adını çəkir [15, s.108]. Bir digər italyan diplomatı A.Kontarini yol qeydlərində 1474-cü ildə Təbrizdə olduğu müddətdə Osmanlı sarayına elçilik niyyəti ilə göndərilən qazıəsgərlə tanış olur və onunla Qum şəhərinə qədər birlikdə getdiyindən bəhs edir. Müəllif qazıəsgəri Ağqoyunlu sarayında önəmli vəzifəlilərdən biri kimi təqdim edir. Eyni zamanda əsərdən qazıəsgərin Osmanlı sarayına razılaşma məqsədilə elçi kimi göndərildiyini, lakin bu elçiliyin uğurlu olmadığından bəhs olunur [43, s.94-96].

Hələlik mənbələrdə Ağqoyunlu dövlətində qazıəsgərin bütün vəzifələri və fəaliyyəti ilə bağlı məlumatların məhdudluğu onlar haqqında tam məlumat verməyə müəyyən çətinlik yaradır. Qaynaqların məlumatından göründüyü kimi, müxtəlif zamanlarda elçilik fəaliyyəti ilə önə çıxan bu vəzifəlilərin bu qədər önəmli işlərdə vəzifələndirilmələri onların Ağqoyunlu sarayında və dövlət idarəetmə sistemində üst mərtəbələrdən biri olduğunu açıq şəkildə göstərir. Vəzifə etibarı ilə qazıəsgərin digər qazılardan daha üstün mövqe tutması açıqdır. Əbubəkr Tehrani qazıəsgər Qazı Əlaəddin Əlini qazıların qüruru kimi tərif edir [41, s.270]. Ağqoyunlu dövlətində vəzifəsindən asılı olaraq qazıəsgər ünvanına sahib olan şəxslərin "Sədr"lə qazılar arasında bir mövqe tutduğu aydın görünür.

***2.5. Qutval (Qalabəyi)***

İstilahın kökü sanskritcədə qala mühafizəçisi mənasına gələn "qot-vala" ilə eyniləşdirilir [33, s.50; 28, s.503]. Teymuri, Elxani, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi hərbi təşkilatlarında kutvala rast gəlirik. Qalalarda mütləq hakimiyyət qutvalların əlində idi və əsas vəzifələrindən biri hakimi olduğu qalanın düşmən qüvvətlərinə qarşı müdafiəsini təşkil etməkdən ibarət idi. Bəzi hallarda qutval və darğa vəzifəsi eyni şəxs tərəfindən icra olunurdu [7, s.247].

Azərbaycan ərazisində də qalaların düşmənə qarşı mühafizəsi və qala hakimiyyəti qutvalların vəzifəsi idi. 841-ci ildə (1437/1438) Azərbaycan qalalarının sahibləri və qutvalları Əlincə qalası istisna olmaqla digər qalaların açarlarını Qaraqoyunlu Cahanşaha təqdim edirlər [41, s.101; 9, s.146]. Diqqət çəkən məsələlərdən biri qutvalların könüllü şəkildə tabe olması və mərkəzi hakimiyyətə qarşı mübarizə aparmaqdan uzaq qalmalarıdır ki, bu da onların yüksək təbəqədən olmadıqlarını düşündürür.

Qutvallar hökmdardan və qalaların bağlı olduğu vilayətin hakimindən asılı idilər. 883-cü ildə (1478/1479) Yaqub Padşahın ordusunun Bəşəridən Əbara doğru yola çıxdığı vaxt Bayandur bəy tərəfindən Amid şəhərinin açarları padşaha təqdim edilir. Bunun ardınca, Diyarbəkr diyarının bir sıra qala və şəhərlərinin qutvalları, hakimləri və daruğaları qalaların və xəzinələrinin açarlarını padşaha təqdim edirlər [51, s.30; 52, s.24]. Göründüyü kimi, şəhərin açarları təqdim olunduqdan sonra digər qala və şəhərlərin (kəndlərin) idarəediciləri də eyni şəkildə Bayandur bəyin yolundan gedirlər. 810-cu ildə (1407/1408) Qara Yusif tərəfindən Əmir Bistam Cagirlü İraqi-Əcəmin hakimi olaraq təyin edilir. Bu vaxt Sultaniyyə qalasının qutvalı Dərviş Quşçu hakimə müxaliflik edir və bunun üzərinə qala Əmir Bistam tərəfindən ələ keçirilir [9, s.60]. Müəllif tərəfindən istifadə olunan müxalif sözü diqqət çəkicidir. Deməli, qutvallar təyin olunan hakimdən asılıdırlar.

### *2.6. Bukavul*

Bukavul istilahının hansı dildən gəldiyi və hərfi mənası haqqında fərqli fikirlər mövcuddur. Tədqiqatçıların bir qismi sözün monqol dilindən, digərləri isə türk dilindən gəldiyini önə sürərək fərqli mənalarda izahlar vermişlər. Akademik Bəkir Çobanzadəyə görə "səhiyyə məmuru", Q.Günerə görə "mübaşir", yaxud "əmri icra edən məmur", M.Nağısoylunun fikrincə, "əsgər bölüyü", A.Balayevin fikrincə isə "hərbi vəzifə" mənalarında istifadə olunur [2, s.111; 4, s.151]. Sözün eyni zamanda müxtəlif tədqiqatçılar tərəfindən irəli sürülən "çaşnigir"[10], "süfrəcibaşı", saraya aid rütbə, "mətbəx vəzifəlisi (aşxanə naziri)" kimi bir çox fərqli açıqlamasına rast gəlmək mümkündür [34, s.194].

Monqol imperiyasının dövlət idarəsinə daxil olan məmurlardan hesab olunan bukavulun ilk illərdə çaşnigirliklə məşğul olduğu düşünülməkdədir [33, s.60]. Elxani və Cəlairi dövlətlərində isə əsas vəzifələri ilə yanaşı, hərbi personal olaraq ordunun təftişi, ordu daxilindəki problemlərin həlli, divan əmrlərinin orduya çatdırılması və bu kimi müxtəlif məsələlərlə vəzifələndirilmişlər [42, s.165; 33, s.60].

J.Woods Ağqoyunlu dövlətində bukavulu "xüsusi vəzifəli" olaraq göstərir və əmrlərin yerinə yetirilməsi və uyğun şəxslərə bildirilməsi ilə məşğul olan saray vəzifəlisi kimi təqdim edir [45, s.25].

K.Paydaşın fikrincə isə bukavulların saraydakı əsas vəzifəsi çaşnigirlik idi, hökmdardan əvvəl yeməkləri dadar, yeməyin zəhərli olub-olmamasını yoxlamaq üçün istifadə edilərdilər. Lakin müxtəlif xüsusi tapşırıqlar üçün də bukavullar göndərilə bilirdi [38, s.154-155].

Fəzlullah Ruzbehan Xuncinin əsərinin 1992-ci ildə nəşr olunan tərcüməsində bukavul istilahını açıqlamaq məqsədilə şərhdə Doerferə istinadla bu şəxslərin hökmdarın sarayında yeməklərin yoxlanılmasında vəzifəli kimi göstərilmiş və əksər hallarda müxtəlif tapşırıqların icrasında istifadə edildikləri qeyd edilmişdir [52, s.28].

S.Əhmədov istilahı iki fərqli şəkildə təqdim edir: bukaul-i-ləşkər (ümumqoşun bukaulu) və bukaul-i-tümən (tümən bukaulu). Tədqiqatçının yazdıqlarına əsasən bukavul Ağqoyunlu ordusunda döyüşçülərə məvacib və qənimət paylayır, qoşunlarda münaqişələrin qarşısını alırdı [5, s. 12].

Xüsusən XV əsr qaynaqlarının heç birində bukavulun saray daxilində yeməklə bağlı vəzifələndirilməsinə rast gəlmədik. Sadəcə Həsən bəy Rumlu 893-cü ildə (1487/1488) baş vermiş hadisələrdən bəhs edərkən Sultan Hüseyn Mirzənin Əmir Əlişirə zəhərli yemək verməsi üçün Kakuli Bukavulu ələ aldığına dair bir hadisədən bəhs edir [9, s.328]. Lakin bu fakt bukavulun saray daxilində yeməklərlə bağlı, xüsusən çaşnigirliklə məşğul olan bir vəzifəli olduğunu təsdiqləmək üçün yetərli deyil. Kakuli Bukavul saray daxilində hər hansı bir vəzifəli ola bilər. K.Paydaş Cəlaləddin Dəvaninin fikirlərinə

[10] Keçmişdə bəzi İslam dövlətlərində hökmdarların süfrələrinə nəzarət edən və yeməkləri yoxlayan saray məmuruna verilən ad [40, s.232]

əsaslanaraq bukavulların hökmdarın güvəndiyi şəxslərdən seçildiyini bildirir [38, s.155]. Bu fikir də öz növbəsində mübahisələndirilə bilər. Hökmdarın güvəndiyi şəxslərin zəhərli ola biləcək yeməkləri dadaraq ölə bilməsi ehtimalı yaranır ki, burada da məntiqi tutarsızlıq özünü göstərir. Bukavulun vəzifələrinin əks etdirilməsi üçün hələ də etimolojisinin mübahisələndirildiyi bir istilahın tam olmayan hərfi tərcüməsinə əsaslanaraq çaşnigirliklə bağlantılı bir vəzifə kimi göstərilməsinin doğru olduğunu düşünmürük.

Əbubəkr Tehrani Əbdüləziz Bukavulu yanındakı digərləri ilə birlikdə bahadırlardan biri kimi təqdim edir. Onların Rüstəm Tərxanın ulusundan bir neçə çadır və atla birlikdə padşahın yanına gəldiklərindən bəhs edir [10, s.112; 41, s.128]. Bukavulun döyüşçü kimi təqdiminə Həsən bəy Rumlunun əsərində də rast gəlirik. 823-cü ildə (1420/1421) Mirzə İsgəndər və Osman bəy arasında baş vermiş döyüşdə Məhəmməd Bukavul adlı birinin iştirak etdiyini görürük [9, s.98].

817-ci ildə (1414/1415) Mirzə Uluq bəy tərəfindən Əxsi qalası ələ keçirilir və idarəsi Payəndə Bukavula tapşırılır [9, s.83]. Qaynaqlarda bukavul istilahının ən yüksək vəzifəsi kimi məhz bu faktı götürə bilərik.

"Kitabi-Diyarbəkiriyyə"də eyni zamanda Qaraqoyunlu Cahanşahın Xorasana yürüşü ərəfəsində Reydə yerləşərək ətrafa əsgər və ləvazimat yığmaq üçün elçilər və "bukavullar" göndərdiyini görürük [41, s.225]. Cahanşah Bağdadın fəthindən öncə də yenə əsgər yığmaq üçün ətrafa bukavullar göndərir [41, s.242].[11] Əslində təvaçinin vəzifəsi olan ordunun təşkili və əsgər toplanmasının bukavullara tapşırılması diqqət çəkir. Maraqlıdır ki, Fəzlullah Ruzbehan Xunci də əsərində həm bukavulun, həm də təvaçinin ordunun yolunu açmaq məqsədilə istifadə edilməsindən bəhs edir və hər iki istilahı eyni vəzifə üzərindən təqdim edir [7, s.255].

Bukavulun elçilik fəaliyyəti də qaynaqlarda əks olunur. Cahanşah Aynal, yaxud İnal adlı bukavulu elçilik məqsədilə bahalı hədiyyələr və qızıl kəmərlə birlikdə Uzun Həsənin yanına göndərir [7, s. 91; 9, s.247; 41, s.251].

5 fevral 1489-cu ildə Ordubazarda dayanan Şah Şərəfəddin Mahmud və Qazı İmaməddin Şeyx Əli adlı iki müfəttiş tərəfindən İraq və Fars vilayətlərinə bukavullar göndərilərək soyurqallarla bağlı islahatın həyata keçirilməsi nəzərdə tutulur. Bu proses çərçivəsində "cani bukavullar" əraziləri gəzərək yerlərdə ərazilərin və mülklərin ölçülməsini həyata keçirdilər [52, s.80-82].

Bukavulların Ağqoyunlu sarayındakı varlığına Cəlaləddin Dəvaninin qələmə aldığı Şahzadə Sultan Xəlilin rəsmi keçid mərasimində də rast gəlirik. "Ərznamə"də boy nökərlərinin arasında 244 bukavulun keçiddə iştirakından bəhs edilir [14, s.65].

Göründüyü kimi XV əsrə aid qaynaqlarda bukavullar daha çox xüsusi əmrlərin icraedicisi kimi əks olunur və ordu daxilində baş verən proseslərdə iştirak edirlər.

### *2.7. Yasavul*

Azərbaycan Ağqoyunlu dövlətinin hərbi təşkilatında önəmli vəzifələrdən biri də yasavuldur. Qaynaqlarda yasaul, yasavur kimi fərqli şəkillərdə qeyd olunan istilah haqqında müxtəlif fikirlər irəli sürülür. Monqolcada "yasa" kəliməsindən gələn sözün ifadə etdiyi məna baxımından "mühafizə məmuru" [33, s.55], "hərbi müfəttiş", yolların mühafizəsi ilə məşğul olan alay çavuşu" kimi müxtəlif şəkillərdə izah edilməsi [22, s.90], istilahın vəzifə arealının öyrənilməsi baxımından müəyyən çətinliklər yaradır.

İ.Erdem yasavulları bukavullarla birlikdə hökmdarın xüsusi və çox önəmli tapşırıqlarının icra edilməsi ilə mükəlləf olan məmurlar kimi izah edir [23, s.91]. J.Woods yasavulları mühafizəçi kimi təqdim edir [45, s.25]. T.Nəcəfli isə yasavulların hökmdarın əmrlərini yerinə yetirən mühafizəçilər olduqlarını vurğulayır [7, s.90]. S.Əhmədov Ağqoyunlu ordusunda yasavulun bələdçi zabit olduğunu və yasavul-başı adlanan vəzifəlinin də digər yasavullara nəzarət etdiyini yazır [5, s.12].

Yasavul istilahı ilə bağlı maraqlı məqamlardan biri də bəzi tədqiqatçılar tərəfindən onun çavuş istilahı ilə eyniləşdirilməsidir. Səlcuqlu hərbi təşkilatının bir parçası olan çavuş vəzifəsinin xüsusən Elxani və Teymuri dövlətlərində yasavulla əvəz olunduğu düşünülməkdədir. Bu

[11] Cahanşahın əsgər yığmaq üçün göndərdiyi şəxslər arasında bukavulların olması Ə.Tehraninin əsərinin Azərbaycan dilinə 1998-ci il tərcüməsində öz əksini tapmayıb. Bunun əvəzinə sadəcə elçilər ifadəsindən istifadə edilib.

dəyişim Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətlərində də yasavul olaraq öz əksini tapmışdır. Xüsusən ordu daxilində nizam-intizamın və tərtibatın qorunması və hökmdarın əmrlərinin birliklərə çatdırılması və yerinə yetirilməsini həyata keçirən çavuşların Osmanlı hərbi idarəsində davam etdiyinə rast gəlirik [31, s.236; 22, s.91]. Lakin, C.Dəvani "Ərznamə" əsərində Şahzadə Sultan Xəlilin taxtının ətrafında inaqlardan və çavuşlardan ibarət seçkin bir xidmətçi qrupundan bəhs edir [14, s.48]. Göründüyü kimi, hər iki istilah arasında vəzifə bənzərliklərinin olmasına baxmayaraq, müəllif üçün bu iki qrup bir-birilə eyniləşdirilmir.

Monqol hərbi ənənəsindən gələn yasavul istilahına Ağqoyunlu dövləti ilə yanaşı Teymuri, Elxani, Qaraqoyunlu, Səfəvi dövlətlərinin hərbi idarəetmə sistemində rast gəlirik. Xüsusi məmurlar olaraq əsas vəzifələrinin sarayın mühafizəsi, malların, mülklərin müsadirəsi, ordunun hərəkətinin təmini, savaş meydanında bölmələrin yerlərinin təşkili, orduda nizam-intizamın və hərəkət zamanı bölmələrin eyni sırayla və ahənglə hərəkətinin təmini kimi bir çox özəl vəzifədə yasavullardan istifadə edilirdi [7, s.249]. Eyni zamanda toyların və məclislərin təşkilinə də nəzarət edirdilər [42, s.166].

825-ci ildə (1421/1422) Xətayda qurulan məclis haqqında Həsən bəy Rumlu yazır: "... cəbbə geymiş adamlar əllərində uzun nizələrlə ayaqları tərpənməz şəkildə dayanmışdılar. Onların başının üstündə bir yasavulun dayanmasına ehtiyac yox idi" [9, s.108]. Mətndən göründüyü kimi müəllif yasavulu verilən tapşırığın icrasından yayınan şəxsləri – böyük ehtimalla, hərbçiləri cəzalandıra biləcək bir vəzifəli kimi əks etdirir.

Ağqoyunlu dövlətində yasavul istilahının varlığını aydın şəkildə Cəlaləddin Dəvaninin "Ərznamə" əsərində görürük. Müəllif, boy nökərlərinin tərkibində hərəkət edən yasavullar üçün müstəqil say verməsə də, tirkəşbəndlərlə birlikdə 188 nəfərin olduğunu vurğulayır [14, s.65].

### *2.8. Pərvanəçi*

Hərfi tərcüməsi "işıq ətrafında fırlanaraq uçan kiçik kəpənək" olan pərvanə sözündən yarandığı düşünülən bu istilah hökmdar fərmanlarını yazan və hazırlayan vəzifəli idi [29, s.244]. Xüsusən, Səlcuq imperiyasının dövlət təşkilatlanmasının bir parçası olan pərvanəçinin digər türk dövlətlərində də eyni vəzifələrlə mükəlləf olduğu görülməkdədir. İ.H.Uzunçarşılı Pərvanəçi vəzifəsini Səlcuqlu dövlətinin önəmli və ən yüksək vəzifələrindən biri kimi təqdim edir [44, s.96].

Türkman hərbi təşkilatında da pərvaniçilər olduqca önəmlidir və müxtəlif qaynaqlarda böyük əmirlər kimi təqdim olunur. Əbubəkr Tehrani Cahanşahın əmirlərindən Qasım Pərvanəçini tanıtmaq məqsədi ilə: "Sultanın (Cahanşahın – N.Ş.) yanında bütün uşaqlardan (xidmətçi, yaxud əsgər – N.Ş.) və yaxınlardan "mutemed[12]-ül mülk və mal" (güvənilir mülk və mal sahibi, yaxud mülk və mal sahiblərinin ən güvəniləni – N.Ş.) olan Tarum əmiri Qasım Pərvanəçi" deyə yazır [41, s.273]. Qasım Pərvanəçini Şərəf xan Bidlisi "mötəbər əmirlərdən öncül qüvvələrin komandanı" [17, s.117], Qazı Əhməd Qaffari isə "güvənilən əmir" [25, s.47] kimi təqdim edir.

Ağqoyunlu dövlətində Uzun Həsənin hakimiyyəti illərində pərvanəçi vəzifəsini tutanlardan biri də hökmdarın əmisi oğlu Xəlil bəy idi. Uzun Həsən Xəlil bəy Pərvanəçini Həcc ziyarəti üçün hazırlanan qafilə ilə birlikdə yola salır və Bağdada çatdığı zaman Şahzadə Maqsud bəyin Sultaniyyə və Təbriz arasındakı yaylaqlara qayıtmasına kömək olmasını tapşırır [41, s.361]. Göründüyü kimi, pərvanəçi vəzifəsi daşıyan əmirlər digər fərqli işlərin həlli üçün də göndərilə bilərdi. 1414-cü ildə Mirzə İsgəndər Əmir Abdulla Pərvanəçini və Əmir Bəyan Quçini döyüşçülərlə birlikdə müxaliflik edən Nəsrulla Səhrayini dəf etmək məqsədilə göndərir [9, s.84]. 1447-ci ildə Cahanşahın İraqa yürüşü zamanı sülh üçün onun yanına gələn elçinin Mövlanə Yaqub Pərvanəçi olması bu vəzifəni daşıyan şəxslərin lazım olduğu təqdirdə elçilik üçün də göndərildiklərini göstərir [9, s.169]. Bu da öz növbəsində pərvanəçilərin hökmdarın yaxın adamlarından və güvənilən şəxslərdən olduğunu düşünməyə imkan yaradır.

Pərvanəçinin vəzifələrinin müəyyən edilməsində maraqlı məqamlardan biri də Həsən bəy Rumlunun əsərində özünü göstərir. Müəllifin yazdığına görə, Mirzə Bayqara Mövlana Bə-

[12] Mutemed – 1. etimad edilən, inanılan, güvənilən şəxs; 2. Avans alıb pay sahiblərinə uyğun pul verən mühasib [20, s.1043].

rənduqa 500 qızıl dinar hədiyyə edir, lakin pərvanəçi ona 200 dinar verir [9, s.87]. Müəllifin yazdıqlarından göründüyü kimi, hökmdar tərəfindən ənam məqsədilə ayrılan məvacibi sahibinə məhz pərvanəçi çatdırır. Anadolu Səlcuqlu dövlətində də pərvanəçinin hökmdarın əmr və fərmanlarından yola çıxaraq hədiyyə edilən ənamları sahiblərinə çatdırdığı bilinir [29, s.244]. Türkman idarəetmə sistemində bu tipli məlumata rast gəlməsək də, bu pərvanəçilərin belə vəzifəsinin olmadığı mənasına gəlmir.

K.Paydaş pərvanəçilərin yazmış olduğu əmrlərin pərvançə adlandırıldığını qeyd edir [38, s.157]. Yazılan əmrlərin və fərmanların altında hökmdarın, vəzirlərin və sağ tərəfdə əmri yazan pərvanəçinin adı əks olunurdu [13, s.263]. Pərvanəçilər yazılan əmrlərin dəqiqləşdirilməsi, yaxud təsdiqlənməsi məqsədilə "Sədr"dən məlumat alır və onun idarəsi altında fəaliyyət göstərirdilər [38, s.157].

Pərvanəçilərin xüsusilə hərbi bacarıqları diqqət çəkməkdədir. Yuxarıda bəhs etdiyimiz Tarom əmiri Qasım Pərvanəçi qaravulluq məqsədilə seçkin xassə nökərləri ilə birlikdə Uzun Həsənin qüvvələri ilə savaşır [41, 273].

Ağqoyunlu dövlətində pərvanəçi divanınının olub-olmaması ilə bağlı fərqli məlumatlar mövcuddur. Məlum olan düşüncələrdən ilki pərvanəçilərin digər divanlarda vəizfələndirildiyidir. İ.H.Uzunçarşılı dövlət sistemindən bəhs edərkən 3 divanın olduğunu və hər bir divan üçün bir pərvanəçinin, yaxud üç divan üçün də bir pərvanəçinin vtəyin edildiyini vurğulayır. O.Əfəndiyev isə dövlət sistemində 5 divanın varlığını və bunlardan birinin də məhz pərvanəçi divanı olduğunu qeyd edir [7, s.238, 21, s.73]. J.Woods da Ağqoyunlu dövlət sistemində pərvanəçi divanının olduğunu qeyd edir və bu divanı hərbi katiblik kimi təqdim edir [45, s.25].

### *2.9. Yurtçi (Yurdçu)*

Adından məlum olduğu kimi yurd təyin etməklə məşğul olan bu vəzifəlilər, xüsusilə, köçəri və yarımköçəri həyat tərzini mənimsəmiş dövlətlərin ordu təşkilatında mühüm rol oynayır. Yurdçular yalnız müharibə vaxtlarında ordunun deyil, eyni zamanda köçün də hərəkət edəcəyi və qonaqlayacağı ərazilərin seçilməsi ilə məşğul olurdular [42, s.166].

Ərazinin coğrafi vəziyyətinin öyrənilməsi, otlaqlarla bağlı məlumatın toplanması, yaylaq və qışlaq ərazilərinin müəyyənləşdirilməsi, sel və baş verə biləcək başqa təbii fəlakətlərin əvvəldən təxmin edilməsi kimi vəzifələrdən mükəlləf olan yurdçular hərbi təşkilatın bir parçası hesab olunur.

Yurdçular həmçinin təyin olunan yurd yerində köçün yerləşməsini təşkil edir, hökmdarın və xanədan mənsublarının çadırlarının qurulacağı yerləri müəyyən edirdilər [7, s.91]. Mənbələrdə xüsusən, hərbi yürüşlər çərçivəsində hökmdarın və ətrafının yerləştiyi ərazilərin yurdçular tərəfindən gizli tutulmalı olduğu yazılır [42, s.166].

Əbubəkr Tehrani yurdçuların döyüşdə iştirakından da xəbər verir. Astrabadda az sayıda türkman qüvvətinin olduğu xəbərini alan Teymuri Sultan İbrahim şəhərə tərəf hücuma keçir. Bu xəbəri alan Cahanşahın yurdçuları döyüşərək şəhərə girib hökmdarı məlumatlandırırlar [41, s.227]. Burda önəmli olan bir digər məsələ yurdçuların kəşfiyyat qüvvəsi kimi fəaliyyətidir. Azərbaycan hərb işi tarixinin I cildinin müəllifləri tərəfindən yurdçuların kəşfiyyat bölüyünün bir hissəsi olduğu diqqətə çatdırılır [1, s.251].

Həsən bəy Rumlunun yazdıqlarına əsasən Sultan Xəlil və Şahzadə Yaqub Mirzə arasında 1478-ci ildə baş vermiş döyüşdən öncə Yaqub Mirzə tərəfindən qüvvələrin dağın ətəyində - düşmən qüvvələrinin önündə onların yollarını kəsəcək şəkildə yerləşdirilməsi əmr edilir. Yurdçular dərhal hökmü yerinə yetirir [9, s.306].

### *2.10. Qəcərçi (bələtçi)*

Yeni torpaqlarda, yaxud iqlim şərtlərinin hərəkət edəcək yolu ayırd etmək üçün yetərsiz qaldığı zamanlarda qoşunların hərəkət istiqamətinin müəyyənləşdirilməsi üçün yolgöstərici olaraq fəaliyyət göstərirdi. Qəcərçilər gediləcək əraziləri yaxşı tanıyan şəxslərdən seçilirdi. Əmir Teymurun Anadolu səfəri zamanı ordunun Sivasa getməsi məqsədilə qacərçi olaraq Qara Yuluq Osman bəy seçilmişdir [41, s.44]. Osman bəy Teymurun ordusunun Suriya və Şama yürüşündə də bələdçi olmuş və bu ərazilərin fəthi ilə birlikdə Əbubəkr Tehraninin ifadəsi ilə "ondan (Əmir Teymurdan – N.Ş.) aldığı hədiyyələrlə başı uca olmuşdur" [41, s.44].

Qacərçilər düşmən ərazilərində qoşunun toplanma ərazilərini də təyin edirdilər. Lakin bu yurdçulardan fərqli olaraq daha çox hərbi təhlükələr nəzərə alınaraq həyata keçirilirdi. Əmir Teymur Saray Ordumda bütün qacərçiləri toplayaraq məşvərət edir, qacərçilər yolları təhlil edərək qeydiyyatını aparır və nəticədə qoşunun Yulduz da toplanması qərarı verilir [39, s.140; 33, s.58].

Əbubəkr Tehraninin verdiyi məlumata əsasən Uzun Həsən Birəcik qalası və Suruc yaxınlığında yerləşən kürtlərə hücum üçün yola çıxır. Lakin hava o qədər pis olur ki, ətrafı görmək mümkün olmur. Bu vəziyyətdə Uzun Həsən əvvəl o yoldan keçdiyinə görə özü qacərçi olur və qüvvələrinə yol göstərir [41, s.140]. Belə bir qənaətə gəlmək olar ki, qacərçilik hərbi ünvandan daha çox hərbi vəzifə idi. Yeri gəldiyində bölgəni ən yaxşı tanıyan qacərçi təyin olunur və qoşunlara yol göstərirdi.

### *2.11. Ələmdar*

"Aləm" kəliməsi ərəb dilindən tərcümədə "bayraq, sancaq", "dar" əlavəsi isə farscadan tərcümədə tutmaq mənasını verir [35, s.363]. Ağqoyunlu qoşunlarında hərbi birliyin bayrağını, yaxud sancağını daşıyan vəzifəli üçün "aləmdar" istilahı istifadə olunurdu. Qoşunların savaş içində hərbi komunikasiyası üçün olduqca vacib olan sancaq hər bir tayfa və birlik üçün fərqli olmaqla bərabər, aid olduğu qüvvələrin önündə, yaxud savaş meydanında digərlərinin görə biləcəyi bir məsafədə və yerdə tutulurdu.

851-ci ildə (1447/1448) Qaraqoyunlularla Ağqoyunlular arasında baş verən döyüşdə Uzun Həsənin qüvvələrinin aləmdarının atı oxla vurulur. Bayrağın titrəməsi ilə birlikdə Uzun Həsənin qoşunlarının məğlub olduğunu düşünən digər əmirlərin kömək məqsədilə ona tərəf getmələri aləmdarın ordu daxilində xəbərləşmə məqsədilə istifadəsinə bir örnəkdir [41, s.180].

Otluqbeli savaşı əsnasında Ağqoyunlu qüvvələrinin sol və mərkəz hissələrinin məğlubiyyəti və sancaqlarını itirmələri və xüsusilə Uzun Həsənin sancağının Osmanlıların əlinə keçməsi nəticəsində sağ cinahda mübarizə aparan şahzadə Uğurlu Məhəmmədin də mübarizə əzminin qırılması bizə qoşunlar üçün bayrağın və dolayı yolla onu daşıyan vəzifəli şəxsin - aləmdarın önəmini bir daha göstərir [41, s.379].

### *2.12. Yamçı*

Monqol imperiyası dövründə, xüsusən Çingiz xanın şəxsi təşəbbüsləri ilə qurulan poçt sistemi yam adlanırdı [26, s.118]. Olduqca böyük bir sistemin parçası olan yam eyni zamanda poçt ofisləri – yamxanalar arasındakı məsafənin ifadə edilməsi üçün də istifadə edilir. Poçt məntəqələrində vəzifəli şəxslərə də yamçı deyilirdi. Monqol imperiyasında Ögedey xan dövründə sistem daha da inkişaf etdirilmiş və təşkilatlanmışdir [26, s.118].

Bu təşkilatlanma aralarında müəyyən məsafələr olan yamxanalar üzərindən həyata keçirilirdi. Xəbər daşıyan yamçılar bu mərkəzlərdə yeməklə, geyimlə, atla təmin olunur və istirahəti təşkil edilirdi. Xarici ölkələrdən gələn elçilərin də bütün ehtiyacları bu mərkəzlər hesabına təmin edilirdi [32, s.236].

Ağqoyunlu dövlətində bu istilahla bağlı tarixşünaslıqda iki müxtəlif fikir mövcuddur. İ.H.Uzunçarşılı yamçıların əsas vəzifəsini "yol göstərən" [44, s.206], T.H. Nəcəfli və A.A.Arayancan isə "əsgərlərin keçəcəyi yolu göstərən" [7, s.249; 13, s.283] kimi təqdim etmişlər. A.A.Arayancan eyni zamanda yamçıların bundan əlavə, poçt xidməti ilə də məşğul olduğunu vurğulayır [13, s.284]. İkinci fikir isə yamçıların poçt məmuru olmasıdır ki, İ.Erdem [23, s.91], S.Əhmədov [5, s.14], V.Minorski [53, s.159] kimi tədqiqatçıların əsərlərində bu vəzifəni önə çıxarırlar.

Mənbələrdə Ağqoyunlu dövlətində yamçılar və yam təşkilatı haqqında yetərli məlumat məhduddur. Sultan Yaqub tərəfindən hicri 892-ci ilin Zülhiccə ayında (1487) Kəbəyə Həcc ziyarətinə gedəcək qafilənin hərəkəti ilə bağlı yazılan fərmanda yamçıların adı çəkilir. Fərmanda bu ziyarətdə iştirak edəcək hacıların heyvanlarından ulaq olaraq istifadə edilməsi elçilərə, yamçılara və səyahətçilərə qadağan edilir [52, s.47]. Eyni zamanda, "Ərznamə"də hərəkət edən xassə nökərləri arasında 37[13] yamçının olduğu qeyd edilib [14, s.65]. Göründüyü kimi, yamçılar da Ağqoyunlu idarəetmə sisteminin də bir hissəsi olmuşdur.

### *2.13. Ulaq, yaxud Fuyuc*

Ağqoyunlu hərbi sistemində xəbər çatdırılması məqsədilə istifadə edilən vəzifəlilərdən bi-

[13] V.Minorskinin 1939-cu ildə etdiyi tərcümədə bu rəqəm 38 kimi göstərilib [53, s.159].

ri də ulaqlardır. İstilahın tam hərfi tərcüməsi hələlik dəqiqləşdirilməsə də, Divani Lüğat-ət-türk də müəllif tərəfindən "bəyinin əmri ilə qaça-qaça gedən poçtalyonun başqa at tapana qədər mindiyi at" olaraq qeyd edilmişdir [27, s.77]. Cəlaləddin Dəvaninin əsərində 28 nəfər qeyd olunan və "fuyuc" kimi yazılan ifadəni İ.Baharlu ulaq olaraq, V.Minorsky isə "qaçışçı" kimi göstərmişdir [14, s.65; 53, s.159]. Eyni zamanda, Əbubəkr Tehrani də Uzun Həsənin Şeyx Həsənə ulaq göndərdiyini və təhdid edərək öz tərəfinə çəkdiyini yazır [41, s.145].

Ümumiyyətlə, ulaq ifadəsindən qaynaqlarda iki fərqli şəkildə istifadə olunmuşdur ki, bunların ilki M.Kaşğarlının ifadəsi ilə poçt məmurlarının, yaxud bir yerdən digər yerə səyahət edən şəxslərin dəyişərək istifadə etdiyi atlar, digəri isə birbaşa xəbər daşıyan məmurlar. Ulağın at mənasında istifadəsinə Fəzlullah Ruzbehan Xuncinin əsərində də rast gəlirik. Müəllif Sultan Yaqub tərəfindən verilən fərmanda yamçıların, səyyahlar və Həcc ziyarətinə gedən hacıların heyvanlarından ulağ kimi istifadəsini qadağan etməsindən bəhs edir [52, s.47].

İkinci şəkildə işlənilən mətnlərdə isə, bizim fikrimizcə, ulaq yamçı kimi daimi poçt məmuru yox, xüsusi vəziyyətlərdə istifadə edilən və sürətli xəbəraparan idi.

***2.14. Quşçu və parsçılar***

Ov və ovçuluq türk mədəniyyətində mühüm yer tutmaqdadır. Bir əyləncədən daha çox hərbi funksiyaları ilə seçilən ov mərasimləri qoşunlara birlikdə hücum, hədəfi zərərsizləşdirmək, effektiv təqib, coğrafi şərtlərə əsaslanaraq problem həll etmə kimi mühüm hərbi strategiyaların və döyüş qabiliyyətlərinin inkişafında xüsusi üstünlüklər təmin edir. Çingiz xan dövründə ov və ovçuluq qanunlara tabe idi [48, s.11]. Gənclərin hərbi təlimində də önəmli rol oynayan ov mərasimlərində istifadə olunan heyvanların təlimi və baxımı ilə Ağqoyunlu dövlətində quşçular və pasçılar məşğul olurdu. Ovda əhəmiyyətli rol oynayan şahin, qartal kimi yırtıcı quşların təlimi, ov ərazisində hərəkəti, sarayda baxımı kimi bir çox vəzifə ilə mükəlləf olan quşçuların sayını Cəlaləddin Dəvani əsərində 86 olduğunu göstərir [14, s.65]. Quşçular eyni zamanda saray daxilindəki müxtəlif ekzotik quşların baxımı ilə də məşğul olurdular.

Pars sözü farscadan tərcümədə pələng deməkdir. Pələnglər həm ov mərasimlərində, həm də sarayda təşkil olunan müxtəlif əyləncələrdə istifadə edilirdi. Məhz bu heyvanların qulluğunu parsçılar həyata keçirirdi. Cəlaləddin Dəvani "Ərznamə"də parsçıların sayının 28 olduğunu qeyd edilib [14, s.65].

J.Barbaro da səyahətnaməsində qoşunların sayımını qeydə aldığı bölümlərdə qafilənin tərkibində 100 ədəd ov pələngi, 200 şahin və 50 qızılquşun (doğan) olduğunu qeyd edir [15, s.72].

***2.15. Rikabdar***

Lüğətdə "atın üzəngisini tutan" mənasını verən rikâbdâr sözü ata minərkən ağasının üzəngisini tutan saray məmuruna, bəzən də at qulluqçusuna aiddir [36, s.111]. Xüsusilə, hökmdarın nəzarətindəki at tövləsinin fəaliyyəti və baxımı ilə məşğul olan vəzifəli şəxs də həm saray, həm da orduda fəliyyət göstərirdi. Hicri 851-ci ildə (1447/1448) Cahanşahın sərkərdəsi Rüstəm Tarxanla Ağqoyunlular arasındakı döyüşdə rikabdar da iştirak edir [41, s.180]. Şah Əli bəy Uzun Həsənin yerini öyrənmək üçün məhz rikabdara müraciət edir. Cəlaləddin Dəvani Ağqoyunlu ordusunun rəsmi keçidində xassə nökərlərin arasında 34 nəfər rikabdarın olduğunu vurğulayır [14, s.65]. "Ərznamə"nin nüsxələrində bu istilah "rikabdaran" kimi təqdim olunur [14, s.65].

***Nəticə***

Azərbaycan Ağqoyunlu dövləti özündən əvvəl bu coğrafiyada mövcud olmuş Səlcuqlu, Monqol, Elxani, Teymuri kimi dövlətlərinin idarəetmə sistemindən bəhrələnmiş və onları yarımköçəri həyat tərzinin tələblərinə uyğun şəkildə yenidən təşkil etmişdir. Ağqoyunlu dövlətinin xüsusən ilk illərində daha çox hərbi təşkilatlanma ilə önə çıxması irəliləyən zamanlarda dövlət təşkilatının formalaşması hesabına bir çox hərbi vəzifəlinin mülki idarəetmədə də pay sahibi olmasına və dolayısı ilə bəzi vəzifələrin həm mülki, həm də hərbi idarəetmənin bir parçası olmasına səbəb olmuşdur. Məhz bu baxımdan tədqiq edilən vəzifəlilərin bir çoxu zaman-zaman xüsusi əmrlərlə birlikdə mülki vəzifələrin icrası ilə də məşğul olurlar. Bu da həmin məmurların vəzifə səlahiyyətlərinin tam tədqiq edilməsi yönündə əngəl yaratmış olur. Eyni zamanda, qaynaqlarda müxtəlif vəzifəlilər üçün

fərqli adlandırmalardan istifadə tam mənada hərbi təşkilatlanma və iyerarxiya formulunun təşkil edilməsini də imkansız edir.

Xüsusilə bir çox istilahın mənşəyinin dəqiqliklə müəyyən olunmaması və istilaha tam hərfi mənanın verilə bilməməsi məmurlar haqqında yetərli məlumat üçün problemlər yaradır. Belə ki, istifadə olunan hərbi istilahların monqol və türk hərbi ənənəsindəki fərqlilikləri və dil baxımından hər iki dövlət sistemindən qaynaqlana biləcəyi fikri əsas alındığında Ağqoyunlu dövlətinin ordu sistemində hansı hərbi ənənənin daha üstün mövqe tutduğu sualı yaranır. Həmçinin monqol hərbi ənənəsinə aid istilahların türk-müsəlman hərbi sisteminə inteqrasiyası zamanı vəzifə öhdəliklərində baş vermiş dəyişiklər məmurun vəzifə arealının öyrənilməsini çətinləşdirir.

Bu kimi diskussiya mövzularını kənara qoyduğumuzda, tədqiqat işində diqqət edilməli bir çox məsələ haqqında məlumat verilmiş və xüsusilə, müasir baxışlar üzərindən dəyərləndirmələr ön planda tutulmağa cəhd göstərilmişdir. Həmçinin, bütün istilahlar dövrü qaynaqlara görə dəyərləndirilmiş və bu kimi ilkin qaynaqlarda olmayan heç bir istilahdan, yaxud vəzifəlidən bəhs edilməmişdir. Məqalədə Ağqoyunlu ordu təşkilatının hərbi məmur təbəqəsi sistemləşdirilərək təqdim edilmişdir.

## Ədəbiyyat

1. Azərbaycanın hərb işi tarixi / red. P.Q.Darabadi. - Bakı: Hərbi Nəşriyyat, 2006. - Cilt 1 : - 520 s.
2. Cavadova E. Azərbaycan ədəbi dilinin orta dövründə hərbi leksikanın inkişafı // Çağdaş Azərbaycan dilinin müasir problemləri. – Naxçıvan: 2021. - s. 107-113.
3. Dəvani C. M. Uzun Həsənin Ordusu: Hərbi keçidə baxış / çev. Ş.Fərzəliyev A.İftixari. - Bakı : Birol Group, 2022. – 110 s..
4. Eyvazov P. Prof. Dr. Bəkir Çobanzadənin dilçilik araşdırmalarında söz yaradıcılığı məsələləri // Uluslararası Türk Lehçe Araştırmaları Dergisi (TÜRKLAD). - 2019. - 1 : Cilt 3. - s. 144-159.
5. Əhmədov S. Ağqoyunlu dövlətinin hökmdarı Uzun Həsən /elmi red. N.Vəlixanlı. – Bakı, 2023. – 198 s.
6. Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə / Ş.Fərzəliyev. - Bakı: Elm, 1983. – 108 s
7. Nəcəfli T. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri / T.Nəcəfli. - Bakı: Çaşıoğlu, 2012. – 604 s.
8. Nəcəfli T. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşünaslığında / T.Nəcəfli. - Bakı : Çaşıoğlu, 2000. – 198 s.
9. Rumlu H. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı) / çev. O.Əfəndiyev, N.Musalı. – Kastamonu: Uzanlar, 2017. – 661 s..
10. Tehrani Ə. Kitabi-Diyarbəkriyyə / çev. R.Şükürova. - Bakı: Elm, 1998. – 333 s.
11. Afyoncu, E. Ruznamçe // TDV İslam Ansiklopedisi. - 2008. - Cilt 35. – s. 276-278.
12. Alan H. Tavacı // TDV İslam Ansiklopedisi. - 2011. - Cilt 40. – s. 177-178.
13. Arayancan A.A. Karakoyunlu hükümdarlarından Cihanşah ve dönemi (Siyaset-Teşkilat-İktisad-Din-Kültür) 1438-1467 [doktora tezi]. / A.A.Arayancan. – Ankara: 2010. – 458 s.
14. Arzname ve “Hulasatüt-tevarih” Eserlerinde Akkoyunlu ve Safevi ordularının resmigeçitleri (Çeviri-Tıpkıbasım-İnceleme İlgar Baharlu). – Çanakkale: Paradigma Akademi, 2023. – 162 s.
15. Barbaro J. Anadoluya və İrana seyahat / çev. T.Gündüz. - İstanbul: Yeditepe Yayınevi, 2022. - 5. : - 120 s.
16. Behramnejad M. Karakoyunlular Akkoyunlular /çev. ve not. S.Gündoğdu, A.İçer. – İstanbul : Kronik, 2022. - 3. : - 144 s.
17. Bitlisi Ş. Şerefname, Osmanlı-İran Tarihi, 2. Cilt. Farscadan Çeviren: Osman Aslanoğlu. Nubihar Yayınları, İstanbul: 2014. – 296 s.
18. Bozkurt N. Nedim // TDV İslam Ansiklopedisi. - 2006. - Cilt 32. – s. 509-510
19. Demir A. Osmanlı hukukunda devletin yapısı // Avrasya Sosyal ve Ekonomi Araştırmaları Dergisi. - 2016. - 1 : Cilt 3. - s. 1-19.
20. Devellioğlu F. Osmanlıca-Türkçe Ansiklopedik Lugat. /F.Devellioğlu – Ankara: 2013. – 1712 s.
21. Efendiyev O. Karakoyunlu, Akkoyunlu ve Safevi devletlerindeki mülki ve askeri

teşkilata bakış // Yeni Türkiye. - 2002. - 45. - s. 72-80.
22. Eğilmez S. Macit, E., Türk devlet teşkilatlarında yasavul // Sosyal Bilimler Dergisi. - Aralık 2012. - 49 : Cilt 12. - s. 89-104.
23. Erdem İ. Akkoyunlu Ordusunu Oluşturan İnsan Unsuru // Tarih Araştırmaları Dergisi. - 1991. – 26 : Cilt 15. - s. 85-92.
24. Erdoğan E. Safevi devletinin askeri teşkilatı [doktora tezi] / E.Erdoğan. – Ankara: 2015. – 232 s.
25. Gaffari Kadı Ahmed. Tarih-i Cihan-Ara. Osmanalılar, Karakoyunlular, Akkoyunlular, Safeviler / Tercüme ve Notlar: Buket Gündüz. – İstanbul: Bilge Kültür-Sanat 2023. – 144 s.
26. Güneş İ. İlhanlı hükümdarlarından Abaka Han'a ait üç yarlığ // Ortaçağ Araştırmaları Dergisi. - 2021. - 1 : Cilt IV. - s. 114-125.
27. Halaçoğlu Y. Ulak // TDV İslam Ansiklopedisi. – 2012. – Cilt 42. – s. 77-79
28. İzgi, C. Kutval // TDV İslam Ansiklopedisi. - 2002. - Cilt 26. – s. 503-504.
29. Kesik, M. Pervane // TDV İslam Ansiklopedisi. - 2007. - Cilt 34. – s. 244.
30. Korkmaz A. Kara-Koyunlu devletinin askeri teşkilatı / A.Korkmaz. – İstanbul: Efeakademi Yayınları, 2022. – 167 s.
31. Köprülü O. F. Çavuş // TDV İslam Ansiklopedisi. - 1993. - Cilt 8. – s. 236-238
32. Kushenova G. Cengiz Han'ın İki Valisi, Mahmut Yalavaç ve Yeh-Lu Ch'u-Ts'ai: Devlet İdare Anlayışları ve Uygulamaları // Bilig. - Yaz 2007. - 42. - s. 229-242.
33. Macit E. Timurlu devleti`nin askeri teşkilatı [yüksek lisans tezi] / E.Macit. – Erzurum: 2012. – 183 s.
34. Ölmez, Z. Ali Şir Nevayinin eserlerindeki moğolca sözcükler II // Türk Dilleri Araştırmaları. – 2015. - 25 : 2. - s. 183-206.
35. Özcan A. Alemdar // TDV İslam Ansiklopedisi. - 1989. - Cilt 2. - s.363-364.
36. Özcan A. Rikabdar // TDV İslam Ansiklopedisi. - 2008. - Cilt 35. - s.111-112.
37. Özçelik U. Kazasker Atama Ruznâmçelerinden Anadolu Kazaskerliği 7 Numaralı Defterin Transkripsiyon ve Değerlendirmesi (H.1099-1101-M.1688-1690) [yüksek lisans tezi] / U.Özçelik. - Bursa, 2018. – 410 s.
38. Paydaş K. Ak-koyunlu devlet teşkilatı [doktora tezi] / P.Kazım. – Ankara: 2003. – 364 s..
39. Şami N. Zafername / çev. N.Lugal. - Türk Tarih Kurumu Yayınevi, Ankar: 1987. - 2.: 403 s.
40. Taneri A. Çaşnigir // TDV İslam Ansiklopedisi. - 1993. - Cilt 8. - s. 232.
41. Tihrani, Ə. Kitab-ı Diyarbəkriyye / çev. M.Öztürk. - Ankara: Türk Tarih Kurumu, 2014. - I baskı : 418 s
42. Uyar M. İlhanlı devletinin askeri teşkilatı [doktora tezi] / M.Uyar. - Ankara, 2007. – 298 s.
43. Uzun Hasan ve Fatih Döneminde Doğuda Venedik Elçileri. Caterino Zeno və Ambrogio Contarinin seyahetnameleri / çev. T.Gündüz. - İstanbul: Yeditepe Yayınevi, 2021. - 5: 152 s.
44. Uzunçarşılı İ.H. Anadolu Beylikleri ve Karakoyunlu, Akkoyunlu devletleri / İ.H. Uzunçarşılı. - Türk Tarih Kurumu Basımevi, Ankara, 1969. - 2. : 297 s.
45. Woods J. Akkoyunlular: Aşiret, Konfederasyon, İmparatorluk / çev. S.Özbudun. - İstanbul : Milliyet Yayınları, 1993. - 1. : 412 s.
46. Yazıcı T. Hümayun // TDV İslam Ansiklopedisi. - 1998. - Cilt 18. – s.479-480.
47. Yıldız H.D. Emirül-ümera // TDV İslam Ansiklopedisi. - 1995. - Cilt 11. – s.158-159.
48. Yılmaz M. İlk islam fetihlerindeki savaş stratejileri ile avlanma taktikleri arasındakı benzerlik // Marife. – 2008. - 8: Sayı 2. - s. 9-45.
49. Yuvalı A. Daruga // TDV İslam Ansiklopedisi. - 1993. - Cilt 8. – s.505-506.
50. Алиев Н., Ахмедов С. Военная история Азербайджана с древнего периода до XVIII вв / Н.Алиев, С.Ахмедов, - Bakı, 2020. – 672 s.
51. Хунджи Ф. Тарих-и Алам-ара-йи Амини / перевод с английского на русский Т. А. Минорской. – Баку: Элм, 1987. – 171 с.
52. Khunji-İsfahani Fadlullah b. Ruzbihan Tarikh-i Alam-ara-yi Amini / çev. V.Minorsky, əlavə və şərhlər J.Woods -

London : Royal Asiatic Society, 1992. – 142 s.
53. Minorsky V. A Civil and Military Review in Fars in 881/1476 // Bulletin of the School of Oriental and African Studies. - London, 1939. - 1 : Cilt 10. - s. 141-178.

**Summary**

**Nariman Shiraliyev**

**Military Officials in Akkoyunlu State Of Azerbaijan**

The main objective of this study is to provide a direct translation and examination of the terms used for military officials within the army system of the Akkoyunlu State in Azerbaijan. The focus is on determining the roles and responsibilities of these military officials and understanding the hierarchy within the 15th-century Turkman military structure. In the course of the research, primary sources were consulted to identify terms used for military officials, and various scholarly works were referenced to clarify the direct translations and meanings of these terms. Additionally, differences in meanings were determined by considering similar criteria and their opposites.

The research consists of a total of 2 main headings and 18 subheadings, where military classification was not taken into account in their compilation. Each subsection provides information about a different military official, including the concept of the military official in the sources, approaches to this concept, information provided by various researchers in historical writings, the official's duties, and their reflection within the state.

Furthermore, efforts were made to identify differences between the roles of military officials and the special orders they received, emphasizing distinctions arising from their assigned tasks. The study also synthesizes information about the roles and existence of officials in states existing in the 15th century and earlier, allowing readers to examine the military systems used by the Akkoyunlu state and their adaptation and development within a semi-nomadic lifestyle.

***Keywords:*** *Aggoyunlu state, Aggoyunlu army system, military officials, military officers, tawachi, parvanachi, amirul-umara*

**Аннотация**

**Нериман Ширелиев**

**Военные чиновники азербайджанской армии Аккоюнлу**

Основная цель данного исследования - предоставить прямой перевод и анализ терминов, используемых для военных чиновников в армейской системе Государства Аккоюнлу в Азербайджане. Основное внимание уделяется определению ролей и обязанностей этих военных чиновников и пониманию иерархии внутри военной структуры тюркменского общества XV века. В ходе исследования использовались первичные источники для выявления терминов, используемых для военных чиновников, и различные научные работы для пояснения прямых переводов и значений этих терминов. Дополнительно различия в значениях определялись с учетом похожих критериев и их противоположностей.

Исследование включает в себя общее количество 2 основных заголовка и 18 подразделов, где военная классификация не учитывалась при их составлении. Каждый подраздел предоставляет информацию о различных военных чиновниках, включая концепцию военного чиновника в источниках, подходы к этой концепции, информацию, предоставленную различ-

ными исследователями в исторических сочинениях, обязанности чиновника и их отражение в структуре государства.

Кроме того, предпринимались усилия для выявления различий между ролями военных чиновников и специальными приказами, которые они получали, с акцентом на различия, вытекающие из порученных им задач. Исследование также синтезирует информацию о ролях и существовании чиновников в государствах, существовавших в XV веке и ранее, что позволяет читателям изучить военные системы, используемые государством Аккоюнлу, и их адаптацию и развитие в полуномадическом образе жизни.

***Ключевые слова:*** *армейская система Аггоюнлу, Государство Аггоюнлу, военные чиновники, офицеры, тавачи, парваначи, амирул-умара*.